Ay ilahəsi (Armatay) məbədinin məkanı Mamrux kəndi

Alban abidələrini müqəddəs kənddə yaşayan saxurlar varlıq kimi qoruyurlar



Azərbaycanımızın dilbər güşəsi olan, igidlər yurdu – Zaqatala rayonunun ərazisində qədim dövrlərin tarixini özündə əks etdirən çoxlu tarixi məkanlar vardır. Bunların içində kifayət qədər tətbiq olunmamış, lakin, tarixi dəyəri çox böyük olan yerlər mövcuddur. Qeyd edək ki, Zaqatala rayonunun ərazisində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001 –ci il tarixli 132 saylı qərarına əsasən Dövlər tərəfindən qorunan 100 –dən çox qədimi abidə qeydə alınmışdır. Bunlardan ən qədimi, rayonun Yuxarı Çardaxlar kəndindəki V əsrə aid olan 'Pəri Qala", "Armatay", "Çingöz Qala", "Şeytan Qalası", 'Zaqatala Qalası" və başqalarıdır. Rayonun kənd yerlərində VI-VIII əsrlərdən qalmış çoxlu sayda Alban abidələri mövcuddur. Nə yaxşı ki, həmin yadigarlar düşmənlər və işğalçılar tərəfindən "özəlləşdirilməyiblər". Belə ki, rayonun Mamrux kəndində (Mamrux kilsəsi) Mazıx, Muxax, Qəbizdərə, Yuxarı Tala (Yuxarı Tala məbədi), Yuxarı Çardaxlar kəndlərində VI-VIII əsrlərdən qalmış çoxlu Alban abidələri, qalaları vardır ki, qorunması sahəsində müəyyən işlər görülür. Yerlərdə olan məscidlərin hamısında yenidənqurma, bərpa işləri aparmış, tarixi abidə kimi onların qorunması – Zaqatala üzrə Tarix və Mədəniyyət Abidələrinin mühafizəsi sahəsinin mühafizəçiləri tərəfindən tarixi abidə kimi qorunması təmin edilir.

Rayonun tarixi abidələrinin çoxu ən qədim vaxtlardan indiyə qədər salamat qalmış kəndlərdə yerləşir. Gözbarax və Qalal kəndlərində XVIII əsrə aid məscidlər, Kebeloba kəndində XV əsrə aid iki qüllə, Mazıx kəndində XII əsrə aid qüllə, Car kəndində XIV əsrə aid Çingöz Qala, Axaxdərə kəndindəki Alban qülləsi (XII əsr) rayonun Əliabad və Mosul kəndlərində XIX əsrdə tikilmiş məscidlər salamat qalmışdır.

Zaqatala rayonundakı Mamrux kəndində isə qədim dövrlərdən başalayaraq müasir dövrə qədər olan uzun mərhələyə aid maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Məlumat üçün qeyd edək ki, Mamrux kəndi rayonun Şərq istiqamətində Zaqatala və Qax rayonunun sərhədlərində, Şimaldan isə Böyük Qafqaz dağlarının ətəyində yerləşir. Bu kənd 3 tərəfi meşəliklə əhatə olunub. Zəngin təbii şəraiti olan Mamrux kəndinin sakinləri tarixən bağçılıq, əkinçilik, heyvandarlıq, toxuçuluq, arıçılıq, duluszuçuluq, dəmirçilik, sənətkarlıq işləri ilə məşğul olurlar. Kəndin ziyalısı, hörmətlisi, dostumuz Məhəmməd müəllim Həsənov demişkən 'Mamrux kəndinin alimi də, rəssamı da, tarixçisi, qızıl medalçısı da zəhmətkeş, xoş, mehriban – saxur millətinə mənsub insanlardır".

Bu ərazi Şimali Qafqazla, Cənubi Qafqazı birləşdirən Dindi aşırımı və Qoleç dağ keçidindən gələn tarixi yolun üzərində yerləşir. Cənubdan isə tarixi İberiya ilə tarixi Albaniyaadn Şərq və Qərb istiqamətlərində uzanan yolların qovşağında olması, onun coğrafi mövqeyinin nə dərəcədə əhəmiyyətli olmasını göstərir. Bəli, Azərbaycanımız tarixi incilər sırasına daxil olan, təbii zənginliyi ilə seçilən Mamrux kəndi özündə çox qədim mədəniyyətimizin izlərini saxlamışdır.

Kəndin yaşlı sakinləri, ziyalıları ilə söhbətlərimdən məlum olur ki, saxur xalqının milli adət və ənənələrini qoruyub-saxlayan Mamruxlulular – öz qədim tarixlərinə çox – çox bağlıdırlar.

Ötən əsrin 60 –cı illərində bu kəndin daxilində əsas yolun çəkilişi zamanı küp qəbir aşkar edilib. Lakin, həmin tapıntı baxımsızlıqdan məhv olub və arxeoloji bölgüdə hansı dövrə aid olduğunu müəyyənləşdirmək mümkün olmamışdır. Eyni zamanda 2012 –ci ildə baş vermiş zəlzələdən sonra yeni məktəb binası üçün qazılan bünövrədə kup və daş qutu, qəbirlər aşkar edilmişdir.

Ən qədim Alban abidəsi

II – IV əsrlərdə tikildiyi bildirilən qədim Alban abidələrindən biri Mamrux kəndindədir. Abidə qədim albanların dini inancları ilə bağlı inşa olunub. Abidənin üst tərəfindən gündoğan istiqamətinə oyuq var. Bu cür abidələr memarlıqda Sövmə adlanır. Tarixçi alimlər bildirirlər ki, bu tip abidələr gediş-gəlişi sıx olan ərazilərdə inşa edilirdi. Dini təhqiqatçılar isə söyləyirlər ki, Sövmə eyni zamanda kilsə funksiyasını da icra edir. Bu abidə isə xristian dini ilə bağlı olub, Albaniya dövlətinin xristianlıq dövrünə aid edilir. Xatırladaq ki, xristianlıq I əsrdə Fələstində meydana gəlmişdir. Arostol Faddeyin davamçısı olmuş müqəddəs Yenisey Albaniya dinini tətbiq etməyə başlayır. Şəkinin Kiş kəndində kilsəni inşa etdirib, burada dini təbliğ etməyə başlayıb. Az müddətdən sonra Şimali – Qərb bölgəsində indiki Zaqatala – Qax zonasında çoxlu Alban dini məbədlərinin əsası qoyulur. Alban dövləti tarixi yerlərlə daha da inkişaf etdirilir. Təhqiqatlardan aydın olur ki, Albanlar qədim zamanlarda təbiət qüvvələrinə inanırlar. Onların dini inanclarına görə günəşə, aya inanmaq başlıca mövqe tuturdu. E.ə. 64 eramızın 24 –cü illərində yaşamış qədim ***Yunan tarixçisi Strabon yazırdı: Albaniyanın İberiya ilə sərhəddində müqəddəs vilayət yerləşir. Orada ay ilahəsinin şərəfinə inşa edilmiş məbəd vardır. Bəli, Stonbonun müqəddəs vilayət hesab etdiyi ərazi müasir Şimali-Qərbi Azərbaycan, Ay ilahəsi məbədi isə Mamrux kəndindəki Armatay məbədi olduğu təsdiqini tapıb. Çox təəssüflə bildirmək istəyirik ki, digər Alban məbədləri kimi xristianlıq Albaniyanın dövlət dini elan olduqdan sonra həmin məbəd üzərində əlavələr edilməklə xristian monastrı ilə əvəz edilmişdir.***

Qeyd edək ki, Mamrux kəndindəki Armatay məbədi xüsusi əlamətdar əhəmiyyətə malik olmaqla, Alban memarlarının yüksək sənətkarlıq və təcrübəsini əks etdirən dairəvi məbəd kimi Azərbaycanın memarlıq tarixində mühüm yer tutur. Abidənin xarici divarlarında sonra yerləşən halqa şəkilli dolama hissə, dairəvi giriş və günbəz altı hissəsinin birləşdirilməsi, çox yarısı kompazisiya və kiçik yan otaqların özünəməxsus memarlıq xüsusiyyəti burada Antik memarlığın təsirini hiss etdirir. Belə nadir abidələri inşa etmək, onları incəliklə - xüsusi zövqlə, sənətkarlıqla işləmək böyük səbr, ustalıq və məharət tələb edir. Bu məbəd inşa edilən dövrlərdə sənət məktəbləri olmasa da, güclü sənətkar, ustalar, memar və heykəltaraşlar olub. Onlar öz sənətini yaşadaraq, gənclərə öyrədərək, nəsildən-nəsilə keçiriblər.

Mamrux kəndinin sakinlərindən ziyalılarla söhbət zamanı bəlli oldu ki, kənd ərazisindəki Alban abidələrinin tarixini öyrənmək, araşdırmalar və təhqiqatlar aparmaq üçün tarxiçi – alimlərdən, təhqiqatlar və təcrübəli memarlardan ibarət quruplar dəfələrlə bu kənddə olublar. Respublika Mədəniyyət Nazirliyi Yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Zaqatala rayon üzrə Mühafizəsi sahəsinin əməkdaşları da tez – tez Alban abidələrinin məkanı olan Mamrux kəndində olurlar və tarixin yadigarlarını yaşatmaq, bərpası, təmizlənməməsi üçün müəyyən işlər görürlər. Məsul şəxs Möminət Heydərova söhbət zamanı qeyd etdi ki, dairəvi - Alban məbədi olan Armatay özündə müstəqil dayanan dövrdə sütün üzərində formalaşdırılmış kvadrat əsasında ucaldılmışdır. Mamrux kilsəsini Armatayın memarı onu yeni elementlə zənginləşdirmişdir. Möminət xanım söylədi ki, dairəvi məbədlərdən olan Mamrux kilsəsi Qafqaz Albaniyasında günbəz memarlığının xüsusi tarixi inkişaf mərhələsini əks etdirir. Qeyd qedək ki, məbəd 1974 –cü ildə arxeoloji təhqiqatlar zamanı Mamrux kəndinin yaxınlığında aşkar edilmişdir. M. Hüseynova bildirdi ki, həmin məbəd 1984 –cü ildə isə təhqiqatçı – alim Gülçöhrə Məmmədovanın rəhbərliyi ilə AMEA –nın ekspedisiyası tərəfindən təmizlənmiş və ölçülmüşdür. Araşdırma təhqiqatlarından məlum olub ki, kilsə Ay və Günəş tanrıları məbədinin özülləri əsasında inşa edilmişdir.

Məbəd olduqca mürəkkəb kompozisiyaya malikdir. Professor Gülçöhrə Məmmədova dəfələrlə o abidəyə baxış keçirib və öz tədqiqat əsərlərində bu barədə geniş yazıb. Məbəd təqribən IV əsrdə Albaniya dövlətinin hökmdarı III Mömin Vacağanın hakimiyyəti dövründə kilsəyə çevrildiyi ehtimal olunur.

Odlar yurdumuzun ərəb xülafəti tərəfindən işğal etdikdən sonra Alban əlifbası, ərəb əlifbası ilə əvəz olunur. 1929 –cu ilə qədər Azərbaycanda ərəb yazısı üstün mövqeyə malik idi. Mamrux kəndində Alban və Ərəb əlifbası ilə yazılmış çoxlu sayda abidələr mövcuddur. Azərbaycanlı tarixçi alimlərin apardıqları tədqiqatlara görə həmin abidələr 1202-1210 –cu illərə təsadüf edilir. Bu abidələrin də özünə görə öyrənilməsi maraqlı sirrləri, tarixi hadisələrdən xəbər verən dəyərli məlumatları vardır.

Tədiqatçı alimlərin apardıqları araşdırmalara görə VII əsrdən etibarən Albaniyada İslam dini yayılmağa başladı. Xristian məbədlərinin əksəriyyəti öz funksiyasının itirdi. İslam dininə aid məscid tikintisi kütləvi hal aldı. Belə məqamda Mamrux kəndindəki köhnə məscid qədim dövrlərdən insanların ibadət etdiyi müqəddəs məkana çevrildi. Həmin məscid XVII əsrdə istifadəyə verilmişdi və abidə Zaqatalada yerləşən ən qədim məsciddir - əsil tarixi əsərdir – demək olar. Yəni, həmin ərazidə bir həyətdə üç dini abidə - Alban kilsəsi, köhnə - müasir məscidlər indiki dövrlərə qədər qorunub saxlanılmışdır.

Unutmayaq ki, Mamrux kəndinin sakinləri zəhmətsevər olduqları qədər, tarixi məkanları qorumaqla, yaşatmaqla yanaşı – İslam dininə çox fəallıqla ibadət edirlər. Bu kənd özündə tarixin izlərini saxlayır. Hər qaya parçası keçmişimizin bir səhifəsindən xəbər verir.

Qeyd: Məlumat üçün bildirək ki, həmyerlimiz Zaqatala rayonunun Yeni Suvagil kəndindən olan professor, Almaniyanın Bonn Universitetinin kafedra müdiri Rasim Mirzəyevin rəhbərlik etdiyi alimlər qrupu, vaxtaşırı – Zaqatala, Qax və Şəki rayonlarında olublar. Onlar bu bölgədəki – Alban abidələrini seyr edərək, elmi araşdırmalar aparıblar. Rasim Mirzəyevin bildirdiyinə görə xarici alimlər, Alban dövlətinin tarixi abidələri, mədəniyyəti, adət və ənənələri barədə elmi araşdırmalar aparır, məqalələr dərc etdirir, elmi əsərlər yazırlar.

Bu ərazi Şimali Qafqazla, Cənubi Qafqazı birləşdirən Dindi aşırımı və Qoleç dağ keçidindən gələn tarixi yolun üzərində yerləşir. Cənubdan isə tarixi İberiya ilə tarixi Albaniyaadn Şərq və Qərb istiqamətlərində uzanan yolların qovşağında olması, onun coğrafi mövqeyinin nə dərəcədə əhəmiyyətli olmasını göstərir. Bəli, Azərbaycanımız tarixi incilər sırasına daxil olan, təbii zənginliyi ilə seçilən Mamrux kəndi özündə çox qədim mədəniyyətimizin izlərini saxlamışdır

Elman Maliyev
Azərbaycan Jurnalistlər Birliyinin üzvü